# Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti ilə görüş

**Yanvarın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) birinci vitse-prezidenti Yurgen Riqterink ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkəmizlə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, Bankın Azərbaycanda mühüm layihələrdə iştirak etdiyi vurğulandı. Avropa Yenidənqurma və İnkişaf Bankının "Cənub qaz dəhlizi"nin reallaşmasına töhfəsi xüsusi qeyd edildi.

Söhbət zamanı perspektiv prioritetlər, o cümlədən nəqliyyat, logistika, informasiya texnologiyaları, bərpaolunan enerji sahələrində əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.



Azərbaycan.- 2023.- 20 yanvar.- S.2.